Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ
Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA
Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi

birbank

# RFO
RESPUBLİKA FƏNN OLİMPİADALARI

Ad ______________________ Soyad ______________________

# 10
# TARİX

- İmtahan müddəti 180 dəqiqədir.
- Hər səhv cavab öz dəyərinin 1/4 - ni aparır.
- Hər sual 4 bal ilə qiymətləndirilir.
- Nəzarətçilərə cavab kağızları və buraxılış vərəqələri təqdim olunur.
- Sual kitabçasında hər hansı texniki qüsur aşkarlandığı və kitabçanın şagirdin məlumatlarına uyğun olmadığı halda (fənn, bölmə, sinif) imtahandan əvvəl mütləq otaq nəzarətçisinə bildirilməlidir.
- Rayon (şəhər) mərhələsinin nəticələrini 09.01.2025-ci il tarixindən etibarən portal.edu.az platformasında şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

**Uğurlar!**

**1. E.ə. I əsrdə Parfiya-Roma münasibətlərinə aiddir:**

a. Parfiya Romanı tamamilə Asiyadan çıxarmağa çalışırdı

b. Karra döyüşündə məğlubiyyətlə Romanın Asiyadakı hakimiyyəti başa çatdı

c. Atropatena ilə ittifaq quran Parfiya Antonini məğlubiyyətə uğratdı

d. Artabazdın Roma ilə diplomatik əlaqələr qurması Parfiyanın Kiçik Asiyada hakimiyyətinə son qoydu

A) a, b

B) b, c

C) a, c

D) b, d

E) c, d

**2. Əbüləsvar Şavur və Cahanşahın hakimiyyəti dövrü üçün oxşar cəhət:**

A) Bizans, erməni və gürcü feodallarına qarşı mübarizə aparılması

B) Orduda və hərbi sahədə islahatların keçirilməsi

C) Rəvvadilər dövləti ilə qohumluq əlaqəsinin yaradılması

D) Yarımköçəri feodalların nüfuzunun zəiflədilməsi üçün tədbirlər görülməsi

E) Səlcuq sultanlığı ilə ittifaq qurulması

**3. Göstərilənlərin aid olduğu şəhəri müəyyən edin:**

a. X əsrin sonundan inkişaf etməyə başlamışdı

b. Əl-Müqəddəsi bu şəhərin Bağdaddan üstün olduğunu yazmışdı




A) 1

B) 2

C) 3

D) 4

E) 5

**4. Gəncə xanlığının mövcudluğu dövründə baş vermişdir:**

1. Kartli-Kaxetiya çarlığının Rusiyaya birləşdirilməsi
2. Şamaxı xanlığının Rusiya tərəfindən işğalı
3. Georgiyevsk müqaviləsinin imzalanması
4. General Sisianovun öldürülməsi
5. Qacarlar dövlətinin meydana gəlməsi

A) 1, 2, 3

B) 2, 4, 5

C) 1, 3, 5

D) 2, 3, 4

E) 1, 4, 5

**5. General Tomsonun AXC-ni Azərbaycanda yeganə səlahiyyətli hakimiyyət kimi tanımasına təsir göstərdi:**

A) Parlament və üçüncü hökumətin demokratik əsaslarla təşkil edilməsi

B) Lənkəran qəzası və Muğanın AXC-nin tərkibinə qatılması

C) Qafqaz İslam Ordusunun Bakını ələ keçirməsi

D) Paris sülh konfransının AXC-ni de-fakto tanıması

E) Bakı XKS-nin hakimiyyətinin başa çatması

**6. “Cənubi Qafqaz quberniyalarında torpaqların məcburi satın alınması haqqında” qanuna aid *deyil:***

A) Mülkədarlar torpağın haqqını 20 il müddətinə dövlətdən almalı idi

B) Sahibkar kəndliləri mükəlləfiyyət daşımaqdan azad edildi

C) Əkinçilik üçün yararsız torpaqlar kəndlilərin mülkiyyətinə pulsuz keçirdi

D) Dövlət kəndlilərinə icma torpaqlarından nəsli istifadə hüququ verildi

E) Su arxları mülkədarların xüsusi mülkiyyətində qalırdı

**7. Qaumatanın hakimiyyəti dövründən fərqli olaraq, I Daranın hakimiyyəti dövründə:**

A) Əhəməni dövlətinin ərazisində çoxsaylı üsyanlar baş vermişdi

B) Misir və Hindistan farslar tərəfindən tutulmuşdu

C) İmperiyanın idarəçiliyi midiyalılara tapşırılmışdı

D) Bütün xalqlar 3 il müddətinə vergi və mükəlləfiyyətlərdən azad edilmişdi

E) Makedoniyalı İsgəndərin Şərqə yürüşü baş vermişdi

**8. Uyğunluğu müəyyən edin:**

1) Xəzər xaqanlığı

2) Dunay Bulqar dövləti

3) Avar xaqanlığı

a) Konstantinopolun türklər tərəfindən ilk dəfə mühasirəyə alınması

b) Peçeneqlərin hücumlarına məruz qalması

c) IX əsrin 60-cı illərində xristianlığın qəbul edilməsi

A) 1-c, 2-a, 3-b

B) 1-b, 2-c, 3-a

C) 1-a, 2-b, 3-c

D) 1-c, 2-b, 3-a

E) 1-b, 2-a, 3-c

**9. Hadisə-nəticə əlaqəsini müəyyən edin:**

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Avstriyanın Prussiya tərəfindən məğlub edilməsi | Venesiyanın İtaliya krallığına birləşdirilməsi |
| B) | San-Stefano müqaviləsinin imzalanması | Osmanlı dövlətinin Avropadakı hakimiyyətinin başa çatması |
| C) | Dekabristlər üsyanının baş verməsi | I Aleksandrın hakimiyyətdən devrilməsi |
| D) | “Taypinlər hərəkatı”nın başlanması | Çində respublika quruluşunun elan edilməsi |
| E) | V.Vilsonun ABŞ prezidenti seçilməsi | Şimal və Cənub ştatları arasında müharibənin başlanması |

**10. XIX əsrin II yarısında Rusiyanın Mərkəzi Asiyadakı fəaliyyətinə aid *deyil:***

1. Türküstan general-qubernatorluğunun yaradılması
2. Qazaxıstanın işğalının başa çatdırılması
3. Pamirin ələ keçirilməsi
4. Türk xalqlarına söz, mətbuat və siyasi azadlıqların verilməsi

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**11. Yeddiillik müharibənin Fransa üçün nəticələrinə aiddir:**

A) Burbonlar sülaləsinin hakimiyyətinə son qoyuldu
B) Avropadakı sərhədlərini xeyli genişləndirdi
C) ABŞ-la müttəfiqlik sayəsində İngiltərəni məğlub etdi
D) Şimali Amerikadakı və Hindistandakı müstəmləkələrini itirdi
E) İkinci imperiyaya son qoyuldu

**12. Xronoloji ardıcıllığı müəyyən edin:**

1. Mancur sülaləsinin hakimiyyətə gəlməsi
2. Əfqan-Maratx müharibəsinin başa çatması
3. Rusiyanın Krım xanlığını ələ keçirməsi
4. Nəcəf şəhərinin Əfşarlar dövlətinə birləşdirilməsi

A) 2, 4, 1, 3
B) 1, 3, 4, 2
C) 2, 1, 3, 4
D) 3, 4, 1, 2
E) 1, 4, 2, 3

**13. Üçtərəfli bəyanatın imzalanmasından sonra erməni işğalından azad olunmuş rayon mərkəzləridir:**

1. Qubadlı
2. Ağdam
3. Füzuli
4. Laçın
5. Zəngilan

A) 4, 5
B) 1, 2
C) 2, 3
D) 2, 4
E) 3, 5

**14. Albaniyanın V əsrin II yarısı və VI əsrin əvvəlləri tarixi üçün səciyyəvidir:**

A) Xəzərlərin qarətçi yürüşlərinə məruz qalması
B) Sasanilər dövlətinə hərbi yardım göstərilməsi
C) Ərazisinə kimmer və iskitlərin köç etməsi
D) Sasani mərzbanları tərəfindən idarə olunmağa başlaması
E) Sasanilər tərəfindən əhalinin siyahıya alınması

**15. II Mahmudun hakimiyyəti dövründə baş *verməmişdir:***

A) Bessarabiyanın Rusiya tərəfindən ələ keçirilməsi
B) Yeniçərilərin hakimiyyətə qarşı qiyam qaldırması
C) Osmanlı dövlətinin konstitusiyalı monarxiyaya çevrilməsi
D) Avropa nümunəsində nazirliklərin yaradılması
E) Yunanıstana müstəqillik verilməsi

**16. Səfəvi hökmdarlarına dair ardıcıllığı tamamlayın:**
**I Səfi - ? - ? - Sultan Hüseyn**

A) Süleyman, II Təhmasib
B) I Abbas, II Abbas
C) II İsmayıl, Məhəmməd Xudabəndə
D) Süleyman, II Abbas
E) II Abbas, Süleyman

**17. Quba hakimi Şeyxəli xanla rus qoşunlarının Gilgilçay üzərindəki döyüşünün nəticəsi:**

A) Şeyxəli xan əsir düşdü
B) Şeyxəli xanın qoşunu məğlub edildi
C) Rus qoşunları məğlub edildi
D) Quba əyaləti Rusiya tabeçiliyindən çıxdı
E) Ruslar tərəfindən ələ keçirilən bəylər sürgün edildi

**18. Mannanın Messi, Zamua, Gilzan və Gizilbunda vilayətləri:**

A) Təsərrüfatda dəvədən istifadə geniş yayılmışdı
B) Deyokun rəhbərliyi ilə hökmdara qarşı ittifaq yaratmışdılar
C) Lullubilərin vətəni idi
D) Assurlara "qoşqu atları"nı vergi verirdilər
E) Əsasən taxılçılıqla məşğul idilər

**19. XIX əsrin əvvəllərində ABŞ-Böyük Britaniya müharibəsinin başlanma səbəblərindəndir:**

A) Böyük Britaniyanın İspaniya ilə müharibə aparması
B) ABŞ-də quldarlığın ləğv edilməsi
C) ABŞ-ın Kanadanı işğal etmək istəyi
D) ABŞ-ın Texas ərazisini işğal etməsi
E) Tomas Ceffersonun hakimiyyətdən uzaqlaşdırılması

**20. 1870-ci il islahatının bütövlükdə Azərbaycan kəndində əsaslı dəyişikliklər yarada bilməməsinin səbəbi:**

A) Kəndlilərin hər desyatin pay torpağa görə natural vergi ödəməsi
B) 5 desyatinlik normanın müəyyən edilməsi
C) Kəndlilərin torpaqdan istifadəsini qanuniləşdirməsi
D) Sahibkar kəndlilərin ümumi kəndli kütləsinin 1/5 hissəsini təşkil etməsi
E) Rusiyada müvəqqəti mükəlləfiyyətliliyə son qoyulması

**21. Böyük Moğol dövlətində soyurqal:**

A) Sufi şeyxləri və müsəlman ruhanilərinə məxsus idi
B) Hərbi xidmət müqabilində verilir və irsən keçirdi
C) Hind knyazlarının şəxsi torpaqları idi
D) Dövlət torpaq fonduna daxil idi
E) Xidmət müqabilində verilir və şərti xarakter daşıyırdı

**22. XII əsrin ortalarına yaxın:**

A) Konstantinopolda universitet açıldı
B) Oksford universiteti yaradıldı
C) "Karolinq minuskulası" yaradıldı
D) İtaliyada universitet açıldı
E) "Karolinq oyanışı" baş verdi

**23. “*Midiyalılar onlara yaxınlıqda olan xalqlar üzərində, bu xalqlar öz qonşuları üzərində, qonşular isə onlara həmsərhəd olan xalqlar üzərində ağalıq edirdi*”.**
**Heredota istinadən verilmiş bu mənbə nəyi sübut edir:**
A) Midiyanın qonşu xalqlarla mədəni əlaqələrinin mövcudluğunu
B) Azərbaycanın şimal torpaqlarının Midiyaya tabe olmasını
C) Azərbaycanın cənub torpaqlarının Əhəmənilərə tabe olmamasını
D) Midiyada hakimiyyət bölgüsünün mövcudluğunu
E) Midiya dövlətinin siyasi, iqtisadi əsasının möhkəm olmamasını

**24. Kərim xan Zəndin fəaliyyətinə aiddir:**
A) Dövləti Səfəvi şahzadəsinin adından idarə etməsi
B) Anadolunun şərq vilayətlərini ələ keçirməsi
C) Yeni dövlətin əsasını qoyması
D) Karnal döyüşündə moğollar üzərində qələbə qazanması
E) Şimali Qafqazda rus qoşunlarının məğlub edilməsi

**25. Xronoloji ardıcıllığı müəyyən edin:**
1. İtaliya krallığının yaradılması
2. Dekabristlər üsyanının baş verməsi
3. Britaniyada ikinci parlament islahatının keçirilməsi
4. Portsmut müqaviləsinin imzalanması
A) 2, 4, 1, 3
B) 4, 3, 1, 2
C) 2, 1, 3, 4
D) 3, 4, 1, 2
E) 1, 2, 3, 4